**Azərbaycan Tibb Universiteti**
**Yeniyetməlik dövrünün gigiyenası**

**"TƏSDİQ EDİRƏM**
**"Uşaq və yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı"** kafedrasının müdiri

dos. Ş.M.Balayeva
İmza _______________

Fənni üzrə
İŞÇİ TƏDRİS PROQRAMI
(SİLLABUS)

**FƏNNİN KODU:** İPSF-B00

**FƏNNİN NÖVÜ:** seçim

**FƏNNİN TƏDRİS SEMESTRİ:** XI

**FƏNNİN KREDİTİ:** 4 kredit

**FƏNNİN TƏDRİS FORMASI:** əyani

**FƏNNİN TƏDRİS DİLİ:** azərbaycan, rus

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİM:** t.e.n., dos. Z.Q.İsmayılova

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏSİ:** **012 595-30-14**

**E.mail:** **department_cahoh@amu.edu.az**

**PREREKVİZİTLƏR:**
Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: *"Uşaq və yeniyetmələr gigiyenasının əsasları"*

**KOREKVİZİTLƏR:**
Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

**KURSUN TƏSVİRİ:**
Bu fənn yeniyetməlik dövrünün əsas inkişaf xüsusiyyətləri, fiziki, cinsi və reproduktiv sağlamlığın formalaşması, onların sağlamlığına təsir göstərən amillər, yeniyetmələrin sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi tədbirləri haqqında sistemə salınmış elmi məlumatları öyrənməklə məşğul olur.

**KURSUN MƏQSƏDİ:**

Fənnin əsas məqsədi: tələbələrə yeniyetmələrin fiziki, cinsi , psixoloji inkişafı , sağlamlığının və sağlamlığa təsir edən amillərin tədqiqat və qiymətləndirmə üsullarını, komplleks profilaktik sağlamlaşdırıcı tədbirləri, yeniyetmələrə yönəlmiş profilaktik tibbi xidmətlərin təşkili, tibbi-gigiyenik tövsiyyələrin tərtib edilməsini öyrətməkdir.

**KURSUN NƏTİCƏLƏRİ:**

Fənnin mənimsənilməsi nəticəsində tələbələr yeniyetmələrin sağlamlığını , onlar arasında yayılan xəstəlikləri və həyat keyfiyyətini, fiziki, psixi və reproduktiv inkişafının qiymətləndirilməsini, yeniyetmələrin sağlamlığının mühafizəsinə və möhkəmləndirilməsinə yönəldilmiş gigiyenik və əksepidemik tədbirlərin səmərəliliyini qiymətləndirməyi bacarmalı, yeniyetmələrə yönəlmiş profilaktik tibbi xidmətlərin təşkili prinsiplərini bilməlidir.

## YENİYETMƏLİK DÖVRÜNÜN GİGİYENASI MÜHAZİRƏ MƏŞĞƏLƏLƏRİNİN PLANI

| № | Mövzuların adı | Saat |
|---|---|---|
| 1. | Yeniyetməlik dövrünün morfo-funksional xüsusiyyətləri, bioloji və cinsi yetişkənlik.<br>***Predmet:*** *yeniyetməlik dövrünün böyümə və inkişafının əsas xüsusiyyətləri, qanunauyğunluqları, yeniyetmələrin bioloji inkişaf göstəriciləri, pubertat və cinsi yetişkənlik. Fiziki inkişaf-sağlamlıq göstəricisi kimi.* | 2 |
| 2. | Yeniyetməlik dövrünün sağlamlıq vəziyyətinin sosial-gigiyenik aspektləri. Yeniyetmələrin psixiki sağlamlığı. Uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsində səhiyyə sisteminin rolu.<br>***Predmet:*** *Sağlamlıq, sağlamlığın meyarları,sağlamlığa sosial-gigiyenik, ictimai amillərin təsiri. Məktəb təhsili dövründə yeniyetmələrdə əmələ gələn əsas xəstəliklər və risk amilləri. Yeniyetməlik dövrünün xəstəliklərinin strukturası və onlara qarşı aparılan profilaktik tədbirlər.Sosial sağlamlıq qrupları. Yeniyetmələrdə psixi inkişaf xüsusiyyətləri.Psixi sağlamlığın mühafizəsi və pozulmasının korreksiyası. Psixiprofilaktika, yerli və beynəlxalq strategiyalar.* | 2 |
| 3. | Yeniyetməlik dövründə reproduktiv sağlamlıq və cinsi yolla keçən xəstəliklər. Fiziki, mənəvi və cinsi zorakılıq, suiqəst halları, profilaktika yolları.<br>***Predmet:*** *Reproduktiv sistem,orqanizmdə baş verən anatomik, fizioloji və psixoloji dəyişikliklər. Yeniyetməlik dövründə reproduktiv sağlamlıq. Reproduktiv sağlamlığa təsir edən amillər. Cinsi yolla keçən xəstəliklər. Fiziki, mənəvi və cinsi zorakılıq, suiqəst halları, profilaktika yolları.* | 2 |

| | | |
|---|---|---|
| 4. | Yeniyetmələrin qidalanma xüsusiyyətləri. İfrat və kifayət olmayan qidalanma. Müasir dövrdə yeniyetmələrin piylənmə problemləri, anoreksiya və anemiyalar.<br>***Predmet:*** *Müasir yeniyetmə rasionu, qidalanmasının təşkilinə xüsusi yanaşma. Qida statusunda pozulmalar. Balanslaşdırılmış qidalanma konsepsiyası. İfrat və kifayət olmayan qidalanma. Piylənməyə səbəb olan mühit faktorları. Anoreksiya və anemiyalar, baş vermə səbəbləri.* | 2 |
| 5. | Yeniyetmələrin sağlam həyat tərzi. Fiziki fəallıq. Zərərli vərdişlərin profilaktikası.<br>***Predmet:*** *sağlam həyat tərzinin amilləri. Səmərəli gün rejimi, fiziki fəallıq. Əsas rast gəlinən pis vərdişlər:siqaret, spirtli içki, narkotik maddələrin qəbulu, texnika asılılığı və s. Psixoloji və sosioloji zərərləri, profilaktikası.* | 2 |

**Cəmi:10 saat**

## YENİYETMƏLİK DÖVRÜNÜN GİGİYENASI TƏCRÜBƏ MƏŞĞƏLƏLƏRİNİN PLANI

P L A N I

| № | Mövzuların adı | Saat |
|---|---|---|
| 1. | Yeniyetmələrin fiziki və cinsi inkişaf xüsusiyyətləri. Bioloji yaşın qiymətləndirilməsi.<br>***Predmet:*** *Yeniyetmələrin Bioloji yaş kriteriyaları. Pubertat dövr. Oğlan və qızların cinsi inkişafının qiymətləndirilməsi. Situasion məsələ.* | 7 |
| 2. | Yeniyetməlik dövründə sağlamlıq problemlərinin aşkar edilməsi üçün tədqiqat üsulları. Sağlamlıq vəziyyətinin qiymətləndirilməsi, xəstəliklərin təhlili.<br>***Predmet:*** *Yeniyetmələrin skrininq müayinə proqramı. Anketlə aparılan test sorğusu. Hipertoniya və hipotoniya vəziyyətinin, qamət və onurğa sütunun, ayaqlarda deformasiya və dəyişikliklərin, görmə qabiliyyətinin, gizli çəpgözlüyün, pıçıltı vasitəsilə eşitmə pozğunluğunun tədqiqi. Tibbi müayinə məlumatlarının qiymətləndirilməsi və xəstəliklərin təhlili.* | 8 |
| 3. | Yeniyetmələrdə psixi inkişaf xüsusiyyətləri və qiymətləndirilmə üsulları.<br>***Predmet:*** *Yeniyetmələrin psixi inkişafı, əqli iş qabiliyyəti və emosional vəziyyətatinə görə harmonikliyinin müayinə üsulları. Test vasitəsilə aqresiyanın təyini.* | 7 |
| 4. | Yeniyetmələrin qidalanma xüsusiyyətləri. Müxtəlif təlim-tərbiyə müəssisələrində qidalanmanın təşkili. Uşaq kollektivlərində qidalanmanın təşkilinin monitorinqi.<br>***Predmet:*** *Müxtəlif təlim-tərbiyə müəssisələrində qidalanmanın təşkili xüsusiyyətlərinin öyrənilməsi və menyu cədvəllərinin təhlili. Qida qəbulları üzrə kalori bölgüsünə görə qiymətləndirmə..* Q*idalanma üzərində monitorinqin meyarları və təhlil istiqamətləri. Yeniyetmələr arasında alimentar amillə əlaqədar yaranan xəstəliklər.* Sağlamlaşdırıcı təkliflər. | 7 |
| 5. | Yeniyetmələr arasında zərərli vərdişlər onların tədqiqat üsulları.<br>***Predmet:*** *Yeniyetmələr arasında zərərli vərdişlərin yaranma səbəbləri və hazırlanmış xüsusi anketlər vasitəsi ilə aparılmış sorğunun nəticələrinin təhlili* | 7 |

| | | |
|---|---|---|
| | *və qiymətləndirmə. Sağlamlaşdırıcı təkliflər.* | |
| 6. | Yeniyetmələrin Həyat keyfiyyətinin müayinəsi (sərbəst müayinə). Yeniyetmələrin Həyat keyfiyyətinin qiymətləndirilməsi<br>**Predmet:** *Həyat fəaliyyətinin sağlamlığa və özünü hiss etməyə təsirinin anket vasitəsilə qiymətləndirilməsi. Həyat keyfiyyəti testinin təhlili və qiymətləndirilməsi. Nəticənin hazırlanması.* | 7 |
| 7. | Yeniyetmələrin sağlamlığının qorunmasında uşaq müəssisə həkiminin, yeniyetmə kabineti həkiminin və sanitar həkimin vəzifələri.<br>**Predmet:** *Təhsil müəssisələrində tibbi heyətinin, yeniyetmə kabineti həkiminin işi və əsas vəzifələri. Həkimin uşaq və yeniyetmələr arasında sağlamlaşdırıcı işinin təşkilinin qiymətləndirilməsi. GEM-in həkiminin illik iş planında uşaq və yeniyetmələr arasında sağlamlaşdırıcı işin təşkilinin qiymətləndirilməsi.* | 7 |

**Cəmi: 50saat**

Fənnin bütün mövzuları üzrə nümunəvi testlər elektron variantda hazırlanır və Universitetinin rəsmi www. amu.edu.az saytında yerləşdirilir.

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə kredit üçün lazımi 100 balın toplaqnması aşağıdakı kimi olacaq:

50 bal-imtahana qədər

O cümlədən:

10 bal- dərsə davamiyyət

10 bal- sərbəst iş

10 bal - bacarıqlar

20 bal- seminar dərslərindən nəzəri biliklərdən toplanacaq ballardır.

50 bal- imtahanda toplanılacaq.

Imtahan test üsulu ilə keçiriləcəkdir, tələbələrə 50 test verilir. 5sualdan ibarət olacaqdır. Hər bir test bir balla qiymətləndirilir. Səhv cavablanan test düzgün cavablardan yığılan ballardan silir.

**QEYD:**

Imtahanda minimum 17 bal toplanmasa, imtaha qədər yığılan ballar imtahan balı ilə toplanılmayacaq. Imtahanda 17 və yuxarı bal, imtahana qədər toplanan ballarla cəmlənir və yekun nəticə aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” -91-100

B - “Çox yaxşı” -81-90

C - “Yaxşı” -71-80

D - “Kafi” -61-70

E - “Qənaətbəxş” -51-60

F - “Qeyri kafi” -51 baldan aşağı

**SƏRBƏST İŞ:**

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi bir balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğuna görə plaqiat yol verilməzdir.

## SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ

| №-si | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Yeniyetməlik dövrünün böyümə və inkişafının əsas qanunauyğunluqları. | 4-cü həftə |
| 2 | Yeniyetməlik dövrünün sağlamlıq vəziyyətinin sosial-gigiyenik aspektləri, sağlamlıq vəziyyətinin qiymətləndirilməsi. | 5-ci həftə |
| 3 | Yeniyetmə kollektivinin sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və onlar arasında yayılan xəstəliklər. | 6-cı həftə |
| 4 | Yeniyetmələrin psixi sağlamlığı və qiymətləndirilməsi. | 7-ci həftə |
| 5 | Yeniyetmələrin reproduktiv sağlamlığı və qiymətləndirilməsi. | 8-ci həftə |
| 6 | Cinsi yolla keçən xəstəliklər. Cinsi zorakılıq, profilaktika yolları. | 9-cu həftə |
| 7 | Yeniyetməlik dövrünün qidalanma xüsusiyyətləri və qidalanmasının gigiyenik problemləri | 10-cu həftə |
| 8 | İfrat və kifayət olmayan qidalanma. Müasir dövrdə yeniyetmələrin piylənmə problemləri, anoreksiya və anemiyalar. | 11-ci həftə |
| 9 | Yeniyetmələrin sağlam həyat tərzi. Fiziki fəallıq. Zərərli vərdişlərin profilaktikası. | 12-ci həftə |
| 10 | Yeniyetmələrə dost səhiyyə xidmətləri. Yeniyetmələrin sağlamlığının qorunmasında yerli və beynəlxalq strategiyalar. | 13-cü həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

## YENİYETMƏLİK DÖVRÜNÜN GİGİYENASI FƏNNİ ÜZRƏ TƏCRÜBİ BACARIQLARIN SİYAHISI

| **№** | **Bacarıq** | **Bal** |
|---|---|---|
| 1 | Yeniyetmələrin bioloji inkişaf səviyyəsinin qiymətləndirilməsi | |
| 2 | Yastıpəncəliyini təyini | |
| 3 | Alementar amildən asılı olaraq sağlamlıq vəziyyətinin qiymətləndirilməsi | |

## YENİYETMƏLİK DÖVRÜNÜN GİGİYENASI FƏNNİ ÜZRƏ TƏCRÜBİ BACARIQLARIN SİYAHISI (rəhbərlik)

| № | Bacarıq | Bal |
|---|---|---|
| 1 | Yeniyetmələrin bioloji inkişaf səviyyəsinin qiymətləndirilməsi | 3 |
| 2 | Yastıpəncəliyinin təyini | 3 |
| 3 | Alementar amildən asılı olaraq sağlamlıq vəziyyətinin qiymətləndirilməsi | 4 |
| | Cəmi: | 10 |

**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulmur.

## Metodiki təminat


1. Əliyeva R.H., Balayeva Ş.M. Yeniyetmələrin sağlamlıq vəziyyəti və onu formalaşdıran amillər - Azərbaycan Tibb Jurnalı, 2009 – 3, səh. 107-109
2. Əliyeva R.H., Balayeva Ş.M. Izuчenie obraza cizni i sostoəniə zdorovğə podrostkov q. Baku - Materialı Vserossiyskoqo konqressa po şkolğnoy i universitetskoy mediüine s mecdunarodnım uчastiem (pod redaküiey d.m.n., prof. Kuчmı V.R.)/ Moskva, 16-18 fevralə 2010 q. St. 62-66
3. R.H.Aliyeva, Sh. M.Balayeva. Social Status and Health of Adolescents at an Early Labour Activity- XIX World Congress on Safety and Health at Work /September 11-15, 2011/ Halic Congress Center, Istanbul, Turkey, p.357
4. Ş.M.Balayeva. Müasir dövrdə yeniyetmələrin sağlamlıq problemləri- 7 aprel Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş elmi-paktiki seminarın tezisləri, Bakı, 2011-ci il, səh. 5-7
5. S.A.Gürzəliyev və b. Uşaq və yeniyetmələr gigiyenası üzrə təcrübə məşğələləri, Dərslik, Bakı- 2010, 290 səh
6. V.Ə.Əliyev. Uşaq və yeniyetmələr gigiyenası – mühazirələr (dərslik). Bakı-“Təbib”- 1995, 280səh.
7. Baranov A.A. i dr. Strateqiə «Zdorovğe i razvitie zdorovğə podrostkov Rossii» (qarmonizaüiə Evropeyskix i Rossiyskix podxodov k teorii i praktike oxranı i ukrepleniə zdorovğə podrostkov). – M.: Nauчnıy üentr zdorovğə detey RAMN, 2010. – 108 s.
8. Baranov A.A., Alğbiükiy V.Ö. Osnovnıe tendenüii zdorovğə det-skoqo naseleniə Rossii. – M.: Soöz pediatrov Rossii, 2011. – 116 s.
9. http://www.who.int/maternal_child_adolescent/topics/adolescence/dev/ru/